Şöhrət Məmmədova45

KLASSİKLƏRİN LAYİQLİ DAVAMÇISI

Bütün dövrlərdə uşaq ədəbiyyatı cəmiyyətin və dövrün siyasi təziqlərindən uzaq olub yüksək tərbiyəedici gücə malik olmuşdur. "Bədii ədəbiyyatın tərkib hissəsi olan uşaq ədəbiyyatında xalqların və uşaqların həyatına dair, onların yaş xüsusiyyətlərinə, qavrama qabilliyyətlərinə uyğun janr, janr, forma və üslubda müxtəlif problemlər qaldırılır, gənc nəsildə yüksək əxlaqi keyfiyyətlər, vətənpərvərlik, sədaqət, dostluq, doğruluq, əməksevərlik, beynəlmiləlçilik, insanpərvərlik və humanizm tərbiyə edilir. Uşaq ədəbiyyatı əsərləri xeyirxah, mərd və cəsur qəhrəmanları, maraqlı süjet və kompazisiyası, anlaşıqlı, sadə və aydın bədii ifadə vasitələri, səlis dili ilə seçilir" (1.s.475)

Azərbaycan uşaq ədəbiyyatı yaradıcıları ümumbəşəri və milli dəyərlərə söykənən, milli-əxlaqi keyfiyyətlərə malik, estetik zövqlü, müasir ruhlu, nikbin, vətənpərvər ruhlu nəslin yetişməsində rol oynayan bədii nümunələr yaratmışlar. Bu nümunələr həcmcə kiçik olsalar da, sadəliyi, paklığı, müqəddəsliyi və ən başlıcası mənsub olduqları dünya sədaqəti ilə seçilirlər. Onların hər biri yarandığı dövrə, mühitə deyil, keçmişə və gələcəyə heyrətlə baxan quru daş parçasından tutmuş xırdaca böcəyədək hər bir şeydə həyatın nəfəsini duyan, gözəllik axtaran uşaqların ədəbiyyatıdır. Böyüklərdən fərqli olaraq , bu ədəbiyyatın nümayəndələri - uşaqlar daha dinamik olur, bəzən yaşlarına uyğun gəlməyən problemlər qaldırır, oyuncaqlardan küsəndə təbiətə üz tutur, yağışın ucundan tutub Aya, ulduza uçur, çiçəklərdən çələng hörüb dünyanı bəzəyir, umu-küsüsünü heyvanlara tökür, bəzən də uşaq hökmü ilə yerin altını üstünə çevirir. Bu nümunələri yaradanlar da fitrətən uşaq kimi saf, məsum olur, həyata, insana, cəmiyyətə, təbiətə, onları əhatə edən hər bir şeyə sayqı və heyranlıqla yanaşırlar.

Çağdaş Azərbaycan uşaq ədəbiyyatında "uşaq nəsrinin yaşarı ənənələrini yaradan ölməz korifeylərin davamçıları cərgəsində" (C.Əhmədov) orjinal duyumu, öz sözü və üslubu ilə seçilən şair, nasir, dramaturq, publisist, filoloq alim Zahid Xəlil belə sənətkarlardandır. Ömrün səksəninci onilliyini ilmə-ilmə çözən alimin istər elmi-filoloji, istər bədii yaradıcılığı oxucularını həmişə orjinallığı və sadəliyi ilə cəlb etmiş, ən kiçik mətləbləri belə böyük məsələlərin həlli kimi düşündürmüşdür.

Xalq şairi Səməd Vurğun yazırdı ki, biz uşaqla danışdığımız zaman insanla danışdığımızı, uşaq üçün yazdığımız zaman insan üçün yaşadığımızı unutmamalıyıq. Xalq şairinin bu fikri Zahid Xəlil yaradıcılığının əsas kredosuna çevrilib:uşaq-insan üçün yazmaq, uşaq-insanı düşünmək. Onun qələmindən çıxan hər bir ifadə, hər bir sətirdə ağsaçlı müdrik bir onsanın uşaq kövrəkliyi, uşaq səmimiliyi duyuylur. (1, s.475)

Zahid Xəlil əlinə qələm aldığı gündən uşaq dünyasının sehrinə vaqif olmuş bu dünyanın acısını, şirinini, səmimiliyini, hiyləsini yaşamış, bu yaşamın doğrularını təbii, real boylarla verməyə müvəffəq olmuşdur. Onun şeir və hekayələrinə veridyi adlar, zəngin obrazlar qalereyası, bu obrazların hər birinin özünəməxsus danışığı nəinki kiçik yaşlı uşaqları, böyükləri belə yaş məhvərindən çıxarıb uşaqlığa qaytarır. Bir anlıq uşaq olmaq, onlar kimi sevinmək, onlar kimi sıxılmaq, onlar kimi höcətləşmək, onlar kimi sevinmək, onlar kimi nifrət etmək istəyirsən. Çünki uşaqların sevgisi təmiz, saf olduğu qədər, nifrəti də güclü olur. Zahid Xəlilin yaradıcılığını izləyərkən məlum olur ki, şair özünün sətirlərdə yaratdığı dünyanın-uşaq dünyasının bir üzvü kimi hiss edir. Bu dünyada bütün uşaqlar–qıvrımsaç, zənci, qaraşın ərəb, irigöz moldavan gözlərindən od tökülən azərbaycanlı balası şən, mehriban, səmimi və şıltaqdır. Onların içində ürəyi onlarla bir döyünən ağsaçlı bir uşaq – "Azərbaycan uşaq nəsrinin inkişafında öz yaradıcılıq axtarışları ilə seçilən Zahid Xəlil uşaq dünyasının, uşaqların xəyal aləminin bədii inikasını yaratmaq üçün poeziyanın sehirli və sirli boyalarından məharətlə istifadə etmiş, uşaqların estetik-bədii zövqünü formalaşdırmaqdan ötrü bütün imkanlardan ustalıqla yararlanmışdır. (3.s.5)"

Zahid Xəlil öz kiçik oxucularını yaşadıqları evdən, getdikləri bağçadan ayırıb "dünya genişliyinə" çıxarır. Onun şeir və hekayələrinin mövzu dairəsi olduqca genişdir. Uşaqları sevindirən, onlarda nəcib duyğular oyadan, dünyanı tanıdan, təbiəti sevdirən, mənəvi zövq verən məsələlər şairin qələmində başlıca mövzuya çevrilir. Sadə üslubda, uşaqların dilinə yaxın bir tərzdə yazılmış şeirlərin əksəriyyətində əməyə məhəbbət, həyatın mənasını başa düçmək, vətəni sevmək və doğru danışmaq və s. bu kimi hislər tərbiyə olunur. Professor Himalay Qasımov Zahid Xəlil şeirlərindəki təbiilik, ilkinlik, uşaq qəlbinə və körpə dünyasına bələdlik , səmimi hislərinmüəllifin incə, həssas müşahidlələrinin poetik ifadəsindən doğduğunu qeyd edir. "Fərq doğuran budur ki, o, uşaqlara məxsus saflığı və şirinliyi, gəncliyə məxsus enerji və həvəsi öz içində, yaradıcılığında qoruyub saxlaya bilmişdir" (4.s.56)

Ədəbiyyatşünas tənqidçi Füzuli Əsgərli Zahid Xəlil yaradıcılığından söhbət açarkən deyir: "Zahid Xəlilin şeir yaradıcılığında poetik duyumun dəyəri və sirri ondadır ki, onun fərdi üslubunda folklorumuza xas olan şirindillik vardır" . Şairin bədii üslubu , forma və məzmunun harmonik vəhdəti fikir və onun obrazlı ifadəsi arasındakı duyumluluq və ən nəhayət, fikrin ifadə edilmə tərzi, xarakteri, üslubu kimi poetizmlə dolu qəlbin həmişə səslənən, gərilmiş simləri ilə şərtlənə bilir. Şair uşaqlarla bu şirin üslubda təmas yaratdıqca, onları olduqca aydın, ahəngdar, rəvan nitqlə fikrini ifadə etmək bacarığına yiyələnməyi öyrədir.

Zahid Xəlil şeirlərində diqqəti çəkən cəhətlərdən biri canlı təbiət mövzusu, təbiət lövhələrinin yaradılmasıdır. Şair gözəl bilir ki, təbiət gözəlliklərini uşaqlara sevdirmək, ağaclar, quşlar, heyvanlar haqqında poetik bir dillə söhbət açmaq həm balaca oxucuların dünyagörüşünün genişlənməsinə, həm də onların estetik zövqünün inkişafına mühüm kömək edir. (4. S.5) Onun şeirlərində, nağıl və hekayələrində təbiətdə hər bir canlı dil açıb danışır, uşağın adını bilmədiyi, tanımadığı quşlar, çiçəklər, heyvanlar elə detallarla təsvir edilir ki, oxucunun gözü qarşısında istər-istəməz onun obrazı canlanır. Şeirdə təsvir olunan bildirçin, kəklik, qırqovul, bülbül, qızılqu., qırqovul, hacıleylək, qaranqu., qartal, kəpənək ağacdələn, qırğı, sağsağan, ördək balası, arıların obrazı Zahid Xəlilin təsvirində sözlə deyil, fırça ilə çəkilmiş bir portreti xatırladır. Bunların hər birini şair elə ştrixlə təqdim edir ki, bəzən onun şair deyil, təbiətşünas bir alim olduğu fikrinə gəlirsən.

Tükləri çəhrayıdır,
Qanadı neçə rəngdi,
Ayaqları uzundu,
Qırmızıdır, qəşəngdir.

Uşaq psixologiyasında rəng çalarlarını bir-birindən ayırmaq üçün şair onları əşyaların üzərində izah edir. Dünyanı, təbiəti, rəngləri təzəcə duymağa başlayan uşaq belə mavi, qırmızı, ağ, qızılı rəngi əbədi yaddaşına həkk etmiş olur:

---

45 ADPU " Ədəbiyyat və onun tədrisi metodikası" kafedrası

Səma mavi,
Yumurta ağ,
Sapsarıdır, günəbaxan,
Qırmızıdır, gülöyşən nar,
Yarpaq yaşıl, kömür qara,
Dəniz göydü,
Qızıldır boranılar.

Zahid Xəlil sözçülükdən uzaq bir şairdir. Təsadüfi deyil ki, onun əksər şeirlərinin sətirləri iki-üç sözdən ibarət olur, bu isə həmin ədəbi nümunələrin uşaqlar tərəfindən tez əzbərlənməsinə, yadda qalmasına əsas olur. Zahid Xəlil təbiətin min bir rəngini, canlı portretini sözlə yaratmağa müvəffəq olur. İstər şeirlərində, istərsə də hekayələrində baharın ılıq nəfəsi ilə qışın sazağı, yayın cırhacır istisi ilə payızın sərin küləyi eyni xoş hisslər oyadır.

Təbiətdə bir canlı-tikanotundan, qarışqadan tutmuş yırtıcı pələngə qədər onun bəzəyidir. Ən kamil varlıq olan insan təbiət gözəlliklərinə uşaq yaşlarından biganə qalmamalı, onları sevməyi və qorumağı bacarmalıdır. “Arı və kəpənək”, “Kəklik”, “Bildirçin”, “Qırqovul”, “Hacıleylək”, “Bülübl”, “Davakar sərçə”, “Cüllüt”, “Qaranquş”, “Şanapipik”, “Qartal”, “Qızıl qaz”, “Qırğılar”, “Qağayılar”, “Ördək balası”, “Tovuz quşu”, “Göyərçin” şeir və hekayələrində uşaqlar Azərbaycanın dilbər guşələrini bəzəyən quşlarla tanış olur, onların gözəlliyi, əsrarəngizliyi vasitəsilə nəcib hisslərə yiyələnirlər.

Həyatı əksetdirmə üsullarının heç birinə biğanə qalmayan Zahid Xəlilin uşaq əsərlərinin bir hissəsini də hekayələr təşkil edir. Bu hekayələr ilk növbədə təsvir olunan hadisələrin qeyri-adiliyi ilə diqqəti cəlb edir. “Bağırmaq istəyən adam”, “Coğrafiya dərsində taxılan eynək”, “Üçbucaq ölkənin adamları”, “Quyruq”, “Kölgələr”, “Cırtdanla Azmanın yeni sərgüzəştləri”, “Əlvan nəğmələr”, “Yumru Yumaq və Qumru”, “Ayaqqabıların söhbəti” və sair hekayələrdə yazıçı ilk baxışdan əyləncəli, yumorostik, bəzən də oxucunun qəbul edə bilmədiyi qəribə hadisələrlə mürəkkəb məzmun yaratmağa nail olur. Uşaqara adi görünən hadisə yaxud əhvalatın görünməyən tərəfində Zahid Xəlil cəmiyyəti narahat edən, bir ziyalı-müəllim kimi onu düşündürən əxlaqi-mənəvi dəyərlərin korlaşmasını, xudbinlik, lovğalıq, özündənrazılıq kimi xüsusiyyətlərin uşaq yaşlarındn özünü göstərən, illər ötdükcə isə faciəyə çevrildiyini göstərir.

Yazıçının hekayə və nağıllarının qəhrəmanları hər gün gördüyü, rastlaşdığı, üzügülər, gözlərindən xoş hiylə yağan, şuluq, ərköyün uşaqlardır. Onlar azyaşlı olsalar da, xalq malına, sərvətinə sədaqətlə, göz bəbəyi kimi baxır, xeyirxah yoldaşlıq edir, lazım gəldikdə “düşmənə”qarşı birləşib mübarizə aparır, ən əsası, təbiəti sevir və onu qoruyurlar. Qəlbi, Aygəz, Cırtdan, Qəlbinur, Anar, Orxan, Qumru, Qədir valideynlərini məhəbbətlə sevən, həssas, diribaş, qoçaq, qayğıkeş qorxmaz uşaqlardır. Bu obrazlar o qədər dolğun yaradılmışdır ki, ilk tanışlıqdan oxuucunun qəlbinə hakim kəsilir, nağıl-hekayədən çıxıb hər bir ailənin sevimlisinə çevrilir.

Onun nağıl-hekayələri xalq nağıllarından bir o qədər də fərqlənmir. İngilis yazıçısı Oskar Uayldın nağıllarını xatırladan bu nağıllarda xeyirlə şəri bir-birindən ayırmaq, yumor hissi oyatmaq, satqınlığa nifrət, dostluğa sədaqət aşılamaq, düzlüyü, doğruçuluğu, sadəliyi, təvazökarlığı, mənəvi saflığı təbliğ etmək əsas motivlərdəndir.

Rus ədəbiyyatşünası, tənqidçi İqor Motyaşov Zahid Xəlilin nəsr yaradıcılığı barədə yazır: “Zahid Xəlil hekayələrinin xarakterik cəhəti nədən ibarətdir? Hər şeydən əvvəl, onların həyatiliyidən. Belə ki, Zahidin hekayələrinin mövzusu gündəlik həyatımızdan, bizi əhatə edən detallardan, hadisələrdən götürülmüşdür. Hekayələrdəki konfliktlər, xarakterlər, personajlar, onların söhbəti hər gün gördüyümüz, qarşılaşdığımız əhvalatlardır. Hadisələrdəki illuziya, hekayələrin dinamikliyi maraq dairəsini artırır, yumor hissini gücləndirir ki, bu da bədii əsər üçün yaraşmayan sığala, primitivliyə yol vermir.

Zahid Xəlilin bütün hekayələri özünün rəngarəngliyi, kolliziyası ilə bir yazıçı təxəyyülünün, fantaziyasının məhsulu olub xeyirli qüvvələri şərə qarşı qoyur” [6, s55].

Zahid Xəlil hekayələrində istər uşaqların, istər quş və heyvanların, istərsə də əşya və predmetlərin həyatı uydurma yox, realdır. Onların hər birini danışdıran şair uşaqlarda əşya və predmetlər haqqında dolğun təsəvvür formalaşdırır. “Halal-haram, toxluq-tamahkarlıq, düzlük, mənəvi saflıq və saie fəzil və rəzil cəhətlər qarşı-qarşıya qoyulur” [6, s63].

“Quş toyu” hekayəsində baharın gəlişi ilə quşların toy-bayram etdiyi təsvir edilir. Yazıçı “toy” ifadəsini hərfi mənadan uzaqlaşdırıb uşaqlara sevinc, bayram, şadlıq kimi izah edir. İnsanların təkcə ailə qurmaq, birgə yaşayışının təntənəli mərasimi olan toy həm də şadlıq, fərəh deməkdir. Hekayədə göstərilir ki, aprel ayının sonuna təyin olunan toya bərk hazırlıq gedir. Ev sahibləri kolların dibini, yuvaları gözdən keçirib təmizləyirlər. Toyun ilk qonağı Qızıl qaz dəstəsi olur. Onların-çəhrayı tükləri günəşin işığında solğun alova bənzəəyən qazların gəlişi ilə toy başlayır-bahar gəlir. Toya şanapipik “bup-bup” harayı ilə qoşulur, o tərəfdən ağacdələnlər öz “tuq-tuq” nağaralarını çalır. Ev sahibi-sərçələr hələ qonaqların çoxunun gəlmədiyinə görə həyəcanlansalar da, bu həyəcan havayı idi. “Leyləklər dimdiklərini şaqqıldatmağa, bülbüllər tütəklərini püfləməyə başlamışdılar. Qarğalar “qarr-qarr” edərək deyirdilər. Əgər mümkünsə, bir az bərk çalın. Torağayların, bildirçinlərin, kəkliklərin səsi bir-birinə qarışır. Qızılağac qoruğunda quşların toyu apreldən sentyabradək davam edir” [7, s.16].

Göründüyü kimi, quş toyunu yazıçı incə yumorla onların baharda qoruqda bir yerə toplaşması, uzaq ölkələrdən köçüb gəlmələri kimi təsvir edir. Onlar sevinir, həm də ona görə ki, qoruqda onlara heç kim ziyan vermir, insanlar onların qayğısına qalır. Yazıçı quşların timsalında böyük bir gələcəyə, xoş günlərə inamını bildirir.

Təbii ki, quşların gözəlliyini dəqiqliyi ilə təsvir etməsi Zahid Xəlilin onları tanımaqdan daha çox özünün təbiıt aşiqi, təbiətin bu nəğməkar aşiqlərinə məftunluğunun təcəssümüdür.

Ədəbiyyat

Azərbaycan Sovet Ensiklopediyası. Ixc. Bakı, 1986, 24 s.
Vurğun S. Balalarımız üçün gözəl əsərlər yaradaq. Əsərləri, 6 cilddə, Vc. Bakı: Elm, 1972, 374 s.
əsgərli F. Ön söz. Xəlil Z. Seçilmiş əsərləri, 6 cilddə. Bakı: ADPU, 2008, 385 s.
Yusifoğlu R. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Təhsil nəşr., 2002, 268 s.
Həsənli B. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Müəllim., 2013, 511 s.
Ələsgərov B. Biblioqrafiya. Zahid Abdulla oğlu Xəlilov. Bakı: Pedaqoji Universitetin nəşri, 2012, 249 s.
Xəlil Z. Cırtdanla Azmanın yeni sərgüzəştləri. Bakı: Gənclik, 1986, 340 s
Xəlil Z. Seçilmiş əsərləri, I c. Bakı: ADPU, 2008, 385 s

Açar sözlər: ədəbiyyat, uşaq ədəbiyyatı, çağdaş nəsr, çağdaş-uşaq poeziyası, nağıl-hekayə, mahnı şeir
Ключевые слова: литература, детская литература, современная проза, современная детская поэзия, сказка-рассказ, творчество Захида Халила, песня - стихотворения.
Key words: literature, children's literature, modern stories, modern children's poetry, poem, Zahid Khalil's creation, song-poetry.

The Deserved Follower of classical writers

The children's literature is different in theme, stylistics, semantics, and genre comparing with other parts of Azerbaijan literature. Although the volumes of these works are very short, they differ with their simplicity, innocence, holiness and most importantly with the faithfulness to the world they belong. The people who create these pieces of works also have the innocence nature like children, they approach to life, people, society, nature and to everything they are surrounded by respectfully and admiringly. Being a poet, prose-writer, publicist, dramatist, and philologist Zahid Khalil's" creation is one of the main pages of children's literature which are very popular among the readers. Every character and personage in his poems and stories are the results of great fantasy and imagination of author.

The theme of "Zahid Khalil's" creation, which writes in three different literary types, are very large: patriotism, nationality, unity, morality, high, qualities understanding of environment, love for nature, admiration and other feelings are reflected in his poems, stories and dramatic works. In Zahid Khalil's representation every character is remembered with the specific features.

Достойное продолжатели классиков

Творчества поэта, писателя, публициста, драматурга, филолога-ученого Захида Халила, несущего бремя детской литературы в художественной и научно-педагогической деятельности, считается страницей современной детской литературы, которая в каждом слове, в каждом предложении является магией, ведущей в таинственный мир детей. В его стихах и рассказах, написанных для детей, каждый персонаж, каждый образ вступает созданием мощной фантазии, шедевром творческого воображения. Тема произведений Захида Халила, созданных в эпическом, лирическом и драматическом литературном виде, довольно богата; родина, нация, единство, духовные ценности, моральные качества, восприятие окружающего мира, любовь к природе, энтузиазм и восхищение в его стихотворениях, рассказах и драматических произведениях рассматриваются в ассоциативной форме. В представлении Захида Халила изображение каждого ребенка запоминается с характерными чертами.

RƏYÇİ: dos.L.Ələkbərova